*Fərhad Bayram oğlu FƏRHADLI*
*magistrant,*
*Adilə Firdovsi qızı MƏMMƏDOVA,*
*Azərbaycan Kooperasiya Universitetinin*
*“Mühasibat uçotu və audit” kafedrası i.f.d., dos.*
*adilememmedova1967@gmail.com*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: “YAŞILLAŞDIRMA ÜMUMXALQ İŞİDİR”

**Xülasə**

Qeyd etmək lazımdır ki, fenomenal yaddaşa, yüksək intellektə, geniş dünyagörüşünə, aydın təfəkkürə malik Heydər Əliyevin beynəlxalq siyasət, iqtisadiyyat, sənaye, maarif, elm, təhsil, ekologiya, ətraf mühit, səhiyyə, mədəniyyət, tarix, hüquq, ədəbiyyat, incəsənət və s. vacib sahələrin dünəni, bu günü, gələcəyi ilə bağlı ideyaları son dərəcə önəmli və faydalıdır. Bu ideyalar Azərbaycan dövlətinin gələcək inkişafı üçün də əvəzsiz məktəbdir.

***Açar sözlər: güclü siyasi lider, siyasi xadim, uzaqgörən siyasətçi, iqtisadiyyatın formalaşdırılması.***

***

Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, ölkəmizin zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanılması həmişə prioritet məsələ olmuşdur. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır.

Təbiətin qorunması, mühafizə olunması ümumxalq işidir. Hər bir vətən övladı doğma Vətənimizin hər gülünün, çiçəyinin qədrini bilməli, təbiətin nadir inciləri olub, adı “Qırmızı kitab”a düşən bitki, ağac və heyvanları qorumalı, ona qayğı ilə yanaşmalıdır.

Vətənimizin zəngin təbiəti xalqımızın sərvətidir. Ona görə də Vətənin təbiətini qorumaq, mühafizə etmək, onun flora və faunasına can yandırmaq hər bir Azərbaycan vətəndaşının övladlıq

borcudur. Qloballaşan dünyamızda təbiətin mühafizə olunması bütün dünya xalqlarını narahat edir. Avropa ölkələrinin çoxunda təbiəti korlayanlara sərt münasibət bəslənilir, yaşıllıq zolaqlarının ildən-ilə genişləndirilməsinə diqqət artırılır.

Doğma yurdumuz Azərbaycan misilsiz gözəlliklər diyarı, zəngin təbiət muzeyidir. Vətənimizin insanı valeh edən möcüzəli təbiəti, bitki örtüyü, zəngin heyvanat aləmi bu yerlərə xüsusi yaraşıq bəxş edir. İnsanlardan xoş münasibət hiss edən muflonlar, dağ keçiləri belə kəndlərimizin lap yaxınlığına qədər gəlib çıxır. Bu gün hər bir Azərbaycan övladı ətraf mühitə ağıllı nəzərlərlə baxmalı, təbiətdən zövq almalı, ana yurdun təbiətinin keşiyində dayanmalıdır. Ana yurdumuzun təbiəti ulu Tanrının bizə bəxş etdiyi elə gözəl sənət əsəridir ki, bu əsəri korlamaq, ona laqeyd münasibət bəsləmək ən azı insafsızlıqdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan təbiətinin qorunması üçün bütün imkanlardan istifadə etmiş, Vətənimizin yaşıllıqlara bürünməsi istiqamətində xeyli iş görmüşdür. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində ölkəmizdə meşə zolaqları genişləndirilmiş, yeni-yeni parkların salınması diqqətdə saxlanılmışdır [4. s. 1].

Bu gün biz fəxrlə deyə bilərik ki, Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan məhz Ulu öndər Heydər Əliyev olmuşdur. Tarixi təcrübə sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar onların gücü, iradəsi sayəsində öz milli sərvətlərinə sahib olmaq və onları gələcək inkişafa yönəltmək imkanı qazanırlar. Heydər Əliyev də Azərbaycan xalqı üçün eyni missiyanı yerinə yetirmişdir. Bu böyük dövlət adamının irəli sürdüyü strategiya indiki nəslin gözü önündə reallığa çevrilmişdir. Ölkəmizin bugünkü uğurları, müstəqilliyimizin daha da möhkəmlənməsi Heydər Əliyev yolunun və ideyasının davamıdır [1. s. 3].

Məlumdur ki, Azərbaycanın bu gün əldə etdiyi uğurlar, beynəlxalq aləmdəki nüfuzu Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində qazanılmışdır. Bu bir reallıqdır ki, məhz Onun xalqın rəyinə əsaslanmaqla gerçəkləşdirdiyi müdrik və uzaqgörən siyasəti ölkəmizin XXI əsrin başlanğıcında regional liderliyini təmin etmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinin canlı əfsanəsi idi və bu gerçəkliyi bizimlə bərabər, bütün dünya etiraf edir. Sağlığında olduğu kimi, əbədiyyətə qovuşandan sonra da O, hər zaman yüksəklikdə və zirvədədir. Onun adı daim əbədi yaşayır, milyonların tükənməz sevgi və ehtiramını qazanıb. Ona ən böyük abidə məhz xalqın qəlbində ucaldılıb.

Azərbaycan xalqının Ulu öndərin xatirəsinə böyük ehtiramının parlaq nümunəsidir ki, Ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində "Heydər zirvəsi"nə yürüşün təşkili artıq xoş bir ənənəyə çevrilmişdir və respublikanın müxtəlif bölgələrindən bu aksiyaya qoşulanların sayı ilbəil artmaqda davam edir.

Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətində Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və inkişafı prioritet yer tuturdu. O, böyük azərbaycanlı idi və bununla fəxr edirdi. Bu dahi şəxsiyyəti yaxından tanıyan hər bir siyasi xadim Onun haqqında danışanda Heydər Əliyevin xalqı, Vətəni üçün çox böyük işlər gördüyünü, müstəqil Azərbaycan dövlətini qurduğunu, onu qoruduğunu və inkişaf etdirdiyini xüsusi qeyd edirdi. Ümummilli liderimiz Azərbaycanın dövlətçiliyi üçün mümkün olan hər bir işi görmüşdür. Onun təməlini qoyduğu böyük ideyalar gerçəkləşdikcə çox xarüqələrin şahidi, iştirakçısı olacağıq. Zaman keçdikcə, Onun ideyaları reallaşdıqca biləcəyik ki, Ulu öndər Azərbaycanın çoxəsrlik inkişaf proqramını işləyib, bizim üçün miras saxlamışdır. Biz hər dəfə onun uzaqgörənliyi, müdrikliyi, xalqa və vətənə sonsuz sevgisi qarşısında heyrətlənəcəyik. Görəcəyik ki, ideyalarda da hər şey ardıcıl, mərhələ-mərhələ hesablanıb, yerləşdirilib [2. s. 3].

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə tarix tərəfindən adekvat qiymətini alan cəsarətli addımlar atmışdır. Heydər Əliyevin hələ sovetlər dönəmindən rəhbərlikdə olarkən atdığı uzaqgörən addımların Azərbaycanın gələcək inkişafına nə qədər dəqiq hesablandığını Azərbaycan müstəqillik qazanandan sonra gördük və dərk etdik. Azərbaycanın zəngin iqtisadi potensialı, intellektual sərvəti üçün əsaslı baza məhz o illərdə yaranırdı. Heydər Əliyev sovet idarəçilik prinsiplərindən və iqtisadi sistemindən maksimum istifadə edərək Azərbaycanın, hətta ittifaq

dövlətinin tərkibində belə, güclü və qüdrətli olmasını təmin etməyə çalışırdı. Çünki O, realist siyasətçi idi.

Ulu öndər Heydər Əliyev bütün həyatını, varlığını doğma xalqına həsr edib. Dünya siyasətində böyük şəxsiyyətlər çoxdur. Amma xalqın tarixinə çevrilən, millətinin, dövlətinin adı çəkilən kimi yada düşən siyasi xadimlər nadirdir və Heydər Əliyev məhz belə şəxsiyyətdir.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev gələcək nəsillərə müstəqil, inkişaf etməkdə olan Azərbaycan, böyük ideyalar və onların həyata keçməsi üçün gəncliyə örnək olan bir məktəb yaratmışdır. Taleyinə həyatı qədər sevdiyi Azərbaycana iki dəfə rəhbərlik etmək şansı düşən Ulu öndər, ömrünü dövrdən, tutduğu vəzifədən asılı olmadan, fəaliyyətinin hər iki mərhələsində yalnız ona xas olan qətiyyətlə, ən çətin maneə və sədləri aşaraq, risklərə məhəl qoymadan, vətənin, xalqının maraqlarına xidmət etməyə həsr etmişdir. Bu gün Azərbaycanda hansı sahəyə diqqət yetirsək, Heydər Əliyevin zəkasının yaratdıqlarını və yadigarlarını görmək mümkündür [3. s. 1].

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdiriyi siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində də ölkəmiz bütün sahələr üzrə inkişaf etməkdədir. Məlumdur ki, iqtisadi inkişaf digər sahələrin inkişafında da müstəsna rol oynayır. Azərbaycanın dinamik, müstəqil iqtisadi inkişaf strategiyası rasional səciyyə daşıyır. Ölkəmiz heç bir qurumdan, hansısa dövlətdən asılı olmayan iqtisadi siyasət yürüdür ki, bu da milli inkişafın fundamental komponenti kimi çıxış edir. Son zamanlar ölkə rəhbərinin bilavasitə sədrliyi ilə ətraf mühitlə bağlı dövlət proqramlarının qəbul olunması və bu istiqamətdə mövcud problemlərin daha səmərəli həll edilməsi məqsədilə sərəncamların imzalanması bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına qaldırılmasına parlaq nümunədir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016
2. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı
3. http://100il.eco.gov.az/az/view/4/1/heyder_eliyev_ve_ekoloji_siyaset
4. https://nuhcixan.az/news/cemiyyet/8396 təbiəti qorumaq hər kəsin borcudur



***Фархад Байрам оглу Фархадлы***
***тагистрант,***
***Адиля Фирдовси кызы Мамедова,***
***доцент, кафедра "Учет и аудит"***
***Азербайджанский Университет Кооперации***
***adilememmedova1967@gmail.com***


**Национальный Лидер Гейдар Алиев: Экология – национальная проблема**


***Резюме***

Следует отметить, что Гейдар Алиев, обладающий феноменальной памятью, высоким интеллектом, широким кругозором и ясным мышлением, отвечает за международную политику, экономику, промышленность, образование, науку, образование, экологию, окружающую среду, здравоохранение, культуру, историю, право, литература, искусство и т.д. Представления о прошлом, настоящем и будущем важных областей чрезвычайно важны и полезны. Эти идеи являются бесценной школой для будущего развития Азербайджанского государства.



***Ключевые слова: сильный политический лидер, политический деятель, дальновидный политик, формирование экономики.***

***Farhad Bayram Farhadli***
***Master***
***Adila Firdovsi Mammadova***
***Department of "Accounting and Audit" of***
***associate professor, Azerbaijan Cooperation University***
***adilememmedova1967@gmail.com***

**National Leader Haydar Aliyev: greening is a national issue**

***Summary***

It should be noted that Heydar Aliyev, who has a phenomenal memory, high intelligence, a broad outlook, and clear thinking, is responsible for international politics, economy, industry, education, science, education, ecology, environment, health, culture, history, law, literature, art, etc. . The ideas about the past, present, and future of important fields are extremely important and useful. These ideas are an invaluable school for the future development of the Azerbaijan state.

***Keywords: strong political leader, political figure, visionary politician, formation of economy.***